*Qəşəm Nəcəfzadə*

# QARALAR İÇİNDƏ NURA BOYANDIM

(Şair Naibə Yusifin şeirləri haqqında)

Naibə Yusifin dövri mətbuatda, internet saytlarında çap olunmuş şeirlərini, esselərini, nəsrini, uşaq hekayələrini və "Dünya, səndə nəyim qaldı" şeirlər kitabını oxumuşam.

Naibə xanım bu günlərdə mənə yeni şeirlərini verdi. Bu şeirlər oxuyandan sonra onun şair bioqrafiyası haqqında məndə dolğun təsəvvür yarandı.

Şeirlərin bir müəllifi var: ürək. Həyat ürəyə dəyir, ürəkdən keçir, sonra ürəyin reaksiyası sözə çevrilir. Ürəyə daxil olan həyatla, ürəkdən qopan həyatın şəkli tamamilə fərqlidir. Əslində ədəbiyyatın düsturu budur.

Naibə Yusifin yeni şeirlərində yaşadığımız həyatın çırpıntılarını gördüm. Bu şeirlər yaşadığımız həyatı olduğu kimi əks etdirir. Onun vətən, dünya, həyat, sevgi şeirləri həyatı orijinal şəkildə bizə - oxuculara təqdim edir. Əslində ədəbiyyat nədir? - Şairin oxucuya təqdim etdiyi həyata ədəbiyyat deyilir. Bu mənada Naibə xanım şeirdən-şerə inkişaf edən və daim öz üzərində çalışan şairdir.

Aşağıdakı şeirə baxaq:

**Nur səpdi yoluma qeybdən bir Şəm,**
**Canlandı gözümdə bir yeni aləm.**
**Köksüm vərəq oldu, qəlbimsə qələm,**
**Unutdum, bu dünya bir yuxu imiş.**

İnsanın yoluna qeybdən nur səpən Şəmin ədəbi tərkibi yenidir, bizə sirli-xudadan xəbər verir. Olmuş və olacaqlardan nəsə anladır. Şairin nur səpən Şəmin nuruna gəlib çıxması onun fikir və düşüncəsində geniş bir yaradıcılıq yolu keçdiyini göstərən faktdır. Hər qələm götürən gəlib bu həqiqətə çıxa bilmir. Yuxarıdakı şeirin 3-cü misrasında şair deyir ki, Şəmin nurunda köksüm vərəq oldu, qəlbimsə qələm. Və bəşər övladı şəriət, mərifət, təriqət mərhələsindən ke-çib həqiqətə qovuşanda dərk edir ki, həqiqətən, yaşadığımız bu dünya şirin bu yuxudur. Fikrimizi sübut üçün aşağıdakı iki misraya diqqət yetirək.

**Unutdum hər şeyi, unutdum artıq,**
**Bir də o yollara baxan deyiləm.**

Bəli insan - şair o Şəmin nurunda həqiqətə qovuşanda və köksü vərəq, qəlbi qələm olanda hər şeyi unudur. İndi bir həqiqət var: Yaradan! Səməd Vurğun demişkən: "Dünyada qalacaq yalnız Yaradan!" Bizim bütün könül çırpıntılarımız o böyük Allahın həqiqətinə qovuşmaqdır. Naibə Yusifin şeirlərindəki ürfani ruh və bu ruhun obrazlı ifadəsi, ştrixləri, detalları çox xoşuma gəlir.

Naibə Yusifin şeirlərinin əksəriyyəti ədəbi fakt, detallar üzərində qurulub.

**Keçərək həyatın sərt qışlarından,**
**Qisas alacağam göz yaşlarından.**
**Ey dünya, gərilən çat qaşlarından,**
**Asılan zənciri taxan deyiləm.**

Dünyanın gərilən çat qaşlarından asılan zənciri heç vaxt taxan deyiləm - deyir şair. Taxmaq feli qolbağa, üzüyə aiddir. Dünya zəncirini qoluna və ya boynuna taxmaq (əsir olmaq), onunla həmrəy olub razılaşmaq, əslində dünyanın tələsirdi və bədii söz hər zaman bu zəncir-lərdən imtina etmişdir. Bu günün özündə də həmin real həqiqəti Naibə xanım şeirlərində ustalıqla sərgiləyir.

Naibə Yusifin şeirlərinin çoxu dünya ilə dialoq şəklindədir. Onun bu qoca dünya ilə davası və şavası bədii sözün, metaforanın yaşam tərzidir. Bu söz Füzulidə də beləydi, Vaqifdə də, Səməd Vurğunda da...

Naibə Yusif şeirlərində daim yeni sözlər işlədir, həmin sözlərə həyat verir. Folklora, xalq dilinə bağlılıq onun yaradıcılığının başlıca xüsusiyyətləridir.

**Naibə, bu dünya sınaqdan keçib,**
**Sünbül dən tutmamış zəmidən biçib,**
**Ölümün tutduğu badədən içib**
**Sağın duruxması nə ağır imiş!**

Bu şeirdə "sağın duruxması" birləşməsi artıq şair ifadəsidir. Dilimizdə "duruxmaq" ifadəsi var, yəni çaşmaq, iki yol ayrıcında qalmaq, karıxmaq anlayışlarını ifadə edir. Sözün əvvəlinə "sağ" sözü əlavə olunanda artıq yeni bir keyfiyyət əmələ gəlir. Yəni sağ adamın və ya sağ is-tiqamətin duruxması, seçim qarşısında qalması şeirə yenilik gətirir.

**Xəyalım dumana yaman qarışıb,**
**Heç bilmirəm, nə hay-küydü, nə qaldı?**
**Köçən köçüb, yol-yolağı ot basıb,**
**Sorur, məndən bu dünyada nə qaldı?**

Bu şeirdə "dolub-boşalan" dünyamızın mənzərəsi var. "Xəyal dumana qarışıb, yol - yolağı ot basıb" - belə bir məqamda sual doğur: məndən bu dünyada nə qaldı? İnsan özünü axtarır, bu get-gəllər" dünyasında. Özündən nəsə tapmayanda, axirət qənaətinə gəlirsən. Özünü Allahın həqiqətində axtarmağa başlayırsan.

**Yenə Haqqa qoşdum, Haqqa dayandım,**
**İlahi bir eşqlə nura boyandım,**
**Naibə, yuxudan nə gec oyandım?**
**Karvanım qapıda, saralıb gülşən.**

Şair yenə haqqa, haqqın nuruna dönür. Çünki bəşər övladının bundan başqa qeyri bir yolu yoxdur. Bəlkə, bizim ömrümüz bu dünyada ancaq yatmaqdır. Oyansaq, yəni ölsək, əsl həqiqətlə üzüzə qalacağıq. Ona görə şair yuxudan oyanmaq istəyir və öz özünə sual verir: Naibə, yuxudan nə gec oyandım? Karvanım qapıda qalıb, gülşənim də saralıb. Burdan bir reallıq doğur. Bəlkə, biz hansısa vacib bir işimizi yarımçıq qoyub şirin yuxuya, xəyala dalmışıq. Və bu "yaşamaqdan" - şirin yuxudan qəfil oyanıb əsl həqiqətin harada olduğunu biləcəyik. Yaşamağın düsturu budur: oxu qoydum, yayı çəkdim, ov vurdum, ağrısı titrəyən kamana qaldı. Yaşamağı ox, kaman, yay, ağrı detallarında anlatmaq əsl şair düşüncəsidir.

Aşağıdakı misraya diqqət yetirək.

**Qaralar içində nura boyandım**

Allah həqiqəti "Qaralar" adi ilə işarələnib bu misrada. Qaralarda neçə rəng var, bütün rənglərin hamısı qaranın içindədir. Qara işarədir, gücdür, cənnətdir, söz və həqiqətdir.

Yenə başqa bir şeirdə həmin həqiqət bu cür ortaya çıxır.

**Ələnir yollara bulud, sis, duman,**
**Yağır dolu, çiskin, verməyir aman,**
**Naibə, yalvarır sayğacda zaman**
**Varımdan aşağı, yoxdan yuxarı.**

"Varımdan aşağı, yoxdan yuxarı" nə deməkdir? Özü də "zaman sayğacda yalvaran vaxt" bu həqiqət fikrə gəlir. Niyə? Şeirin gözəlliyi odur ki, özündən sonra danışmağa yer qoysun. Mənə elə gəlir ki, "varımdan aşağı" yaşadığımız bu dünyadır, "yoxumdan yuxarı" isə ruhların yaşadığı yer, Allahın həqiqətidir.

Yenə başqa bir şeir:

**Bir nisgil uyuyur sınıq sazımda,**
**Oyanıb arabir fəryada gəlir.**
**Bulud qanad salır, külək ulayır,**
**Gördüyü bəladan qəm dada gəlir.**

Bu gün Azərbaycan şeiri təbiətə inteqrasiya edir. Naibə Yusifin şeirlərində bu ovqat güclüdür.

Naibə xanımın çox maraqlı qoşmaları, gəraylıları, sərbəst şeirləri, deyişmələri, vətən və şəhidlərimiz haqqında dəyərli, bədii cəhətdən uğurlu əsərləri var.

Mən bu yaradıcılıq yolunda ona yeni - yeni uğurlar arzu edirəm.